# AZƏRBAYCAN ELM FONDU

**Azərbaycan Elm Fondunun**
**2022-ci il üçün ƏSAS qrant müsabiqəsinin**
**(AEF-MCG-2022-1(42)) qalibi olmuş**
**layihənin yerinə yetirilməsi üzrə aralıq**
**(rüblük olaraq 6-cı mərhələ)**

## ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Pedaqoji kadr hazırlığında Avropa təhsil sisteminin araşdırılması və beynəlxalq təcrübəyə əsaslanan yeni məzmunlu təhsilin Azərbaycanda pedaqoji yönümlü universitet və kolleclərin filoloji fakültələrində tətbiqi**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Hüseynova Mahirə Nağı qızı**
Layihənin nömrəsi: **AEF-MCG-2022-1(42)-12/12/5-M-12**
Müqavilənin imzalanma tarixi: **10 aprel 2023-cü il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **24 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 may 2023-cü il - 01 may 2025-ci il**
*Layihənin **VI mərhələ** üzrə (rüb) məbləği:*

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| **1** | Layihənin həyata keçirilməsi üzrə cari rübdə yerinə yetirilmiş **elmi işlər** |
| | ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru prof. Mahirə Hüseynova və Müasir Azərbaycan dili kafedrasının müdiri dos. Könül Səmədova Daşkənd Yunus Rəcəbi adına Muğam İnstitutunun və Daşkənd Dövlət Şərqşünaslıq Universitetinin qonağı olmuşlar. Özbəkistanın Cizzak Dövlət Pedaqoji Universitetinin 50 illiyi ilə bağlı “Təhsilin inkişafı strategiyası dəyərlərə əsaslanan tərəqqidir” adlı elmi-praktik konfrans keçirilmişdir. Prof. Mahirə Hüseynova çıxışının əvvəlində Azərbaycan Dövlət Pedaqoji Universitetinin Qafqazın ən qədim ali pedaqoji kollektivi olduğunu qeyd etmişdir. Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) dəstəyi ilə baş tutan görüş zamanı Yunus Rəcəbi adına Muğam İnstitutunun prorektoru Davlat Ximbətov qonaqları salamlayaraq yeni yaradılan Muğam İnstitutu haqqında məlumat vermiş, bu ali muğam məktəbində müəllim və tələbələrə yaradılan şərait haqqında söhbət açmışdır. Prorektor ölkələr arasındakı siyasi və mədəni münasibətlərdən də bəhs etmişdir. |

| | |
|---|---|
| | Prof. Mahirə Hüseynova qeyd etmişdir ki, Daşkənd səfəri zamanı hörmətlə, mehribanlıqla qarşılanmış, özbək xalqı ilə dil, din, mədəniyyət və adət-ənənələrin oxşarlığı ölkələr və xalqlar arasında dostluğun və qardaşlığın əyani sübutu olduğunu vurğulamışdır.<br>Daha sonra prof. Mahirə Hüseynova Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) təşəbbüsü ilə Daşkənd Dövlət Şərqşünaslıq Universitetində fəaliyyət göstərən “Azərbaycanşünaslıq Mərkəzi” ilə tanış olmuş, mərkəzə müəllifi olduğu elmi və bədii əsərlərini hədiyyə etmişdir.<br>O, Azərbaycan və özbək xalqlarının dostluğu və qardaşlığından danışaraq deyib:- Mən iki xalqın folklorunda və yazılı ədəbiyyatında mövcud üzvi yaxınlığı yaradan amillərdən bəzi nümunələr göstərmək istərdim. Hələ orta əsrlərdən bəri böyük Nizami və Əlişir Nəvai, Məhəmməd Füzuli və Zəhirəddin Məhəmməd Babur, Nəsimi və Munis Xarəzmi, həmçinin digərlərinin yaradıcılığında bu yaxınlıq qabarıqdır. Bu qabarıqlıq ancaq mövzu və ideya deyil, həm də janr eynilikləri ilə də diqqəti çəkir. Prof. Mahirə Hüseynovaya türk dünyasında gördüyü elmi fəaliyyətinə görə Özbəkistanın Cizzak Dövlət Pedaqoji universitetinin 50 illik yubileyi münasibəti ilə “Fəxri Professor” adı verilmişdir. dos. Könül Səmədova Azərbaycanda təhsilin inkişafı ilə bağlı Avropa təhsil sisteminin təcrübəsinin öyrənilməsi, onun Azərbaycanın ali təhsil ocaqlarında özümüzə uyğun formada tətbiqi, Türk dünyasının təhsil sistemində öncül təcrübənin öyrənilib yayılması, hər bir türk dövlətinin öz milliliyini saxlamaqla yeni innovativ təcrübələrdən istifadəni önə çəkməsi məsələlərinə aydınlıq gətirib.Daha sonra prof. Mahirə Hüseynovanın Cizzak Universitenin tələbələri ilə görüşü keçirilmişdir. Tələbələrin suallarına cavabladıqdan sonra prof. Mahirə Hüseynova yaradıcılığından şeirlər səsləndirmişdir.<br>Görüşün sonunda tələbələr prof. Mahirə Hüseynovanın “Əsr türkün əsridir” şeirinin sözlərinə bəstələnmiş mahnını dinləmişlər. |
| **2** | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (cari rüb üçün, faizlə qiymətləndirməli) |
| | *97 %* |
| **3** | Hesabat dövründə alınmış **elmi nəticələr**, onların yenilik dərəcəsi |
| | *1. Əmək bazarının real tələblərini daha yaxşı öyrənilməsi və təhsil müəssisələrinin buna uyğun planlaşdırılması vacibliyi.*<br>*2. Univeritetlər arasında əməkdaşlıq formatlarının təkmilləşdirilməsinə ehtiyac.*<br>*3. Əmək bazarının nümayəndələri ilə əməkdaşlıq proqramlarının və təcrübə mübadiləsinin artırılmasının qərara alınması.*<br>*4. Universitetlərdə praktik təlimlər və təcrübə proqramlarının gücləndirilməsi.* |

| | |
|---|---|
| **4** | Layihənin yerinə yetirilməsi zamanı istifadə olunan üsul və yanaşmalar |
| | APF (Adaptive Project Framework)<br>XP (Ekstremal Proqramlaşdırma)<br>Eksperimental sorğu<br>Təqdimat |
| **5** | Layihə üzrə elmi nəşrlər (məqalələr, monoqrafiyalar, icmallar, konfrans materialları, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə) *(surətlərini əlavə etməli!)* |
| | 1. ***Səmədova Könül.*** *Qıpçaq mənbələrində və Azərbaycan dilinin Şimal dialektlərində cümlə strukturu və cümlə sintaksisinin tarixi müqayisəli təhlili.*<br>***Əlyazmalar yanmır,Bakı, 2024,*** səh.161-168<br>https://www.manuscript.az/mdb/az.php?go=arxiv<br>2. Mirvari Qasımova. İspaniya Təhsil Sistemində Müəllim Hazırlığı Xülasə.<br>BİLİM TEKNOLOJİ KÜLTÜR SANAT SPOR EĞİTİM KONQRESİ, 25-28 hazıran 2024, səh.18<br>https://drive.google.com/file/d/186MQCDOSIgtFN3oB6wLVqm2yme6-HoXB/view?usp=drive_link<br>3. Ülviyyə Hacıyeva. Xarici dillərin tədrisində şəxsi praktiki biliklərin istifadəsi<br>https://drive.google.com/file/d/186MQCDOSIgtFN3oB6wLVqm2yme6-HoXB/view?usp=drive_link<br>BİLİM TEKNOLOJİ KÜLTÜR SANAT SPOR EĞİTİM KONQRESİ, 25-28 hazıran 2024, səh. 38 |
| **6** | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | 1. *Əmək bazarının tələblərinə uyğun təhsil proqramalrının optimallaşdırılması üçün təkliflə.*<br>2. *Ətraflı strateji plan* |
| **7** | Layihə üzrə ezamiyyətlər |
| | *(burada doldurmalı)* |
| **8** | Layihə üzrə elmi ekspedisiyalarda iştirak |
| | *(burada doldurmalı)* |
| **9** | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | (23 oktyabr 2024-cü ildə ADPU nun Filologiya Fakultəsində 45 tələbə və 26 müəllimin iştirakı ilə ***"Pedaqoji kadr hazırlığında Avropa təhsil sisteminin araşdırılması və beynəlxalq təcrübəyə əsaslanan yeniməzmunlu təhsilin Azərbaycanda pedaqoji yönümlü universitet və kolleclərin filoloji fakültələrində tətbiqi"*** (EIF-MCG-2022-1(42)-346) adlı qrant layihənin əsas məqsədlərindən irəli gələn |

| | |
|---|---|
| | vəzifələrin icrası baxımından həyata keçirilən tədbirlər silsiləsindən növbəti təlim təşkil edilmişdir. Təlimdə xarici və yerli universitetlərdə əmək bazarının nümayəndələri ilə strategiyaların araşdırılması və təhsil proqramlarının əmək bazarının tələblərinə uyğunlaşdırılmasının təmin edilməsi problemləri əsas müzakirə predmeti olmuşdur. Layihə üzvlərindən dosent Ü.Hacıyeva, f.ü.f.d M.Qasımova pedaqoji kadr hazırlığı sahəsində Almaniya və İspaniya təcrübəsində ali təhsil müəssisələrində, habelə kolleclərdə kadr potensialının əmək bazarının tələbləri əsasında tənzimlənməsi mexanizmləri, təhsil proqramlarının əmək bazarı tələbləri əsasında necə uyğunlaşdırılması, tələbələrin təhsil dövründə əldə etdikləri bilik və bacarıqların hansı hallarda çatışmadığı və işverənlərin hansı tələblərinin təhsil proqranmlarında nəzərə alınmaması kimi məsələlər barədə məlumat vermişlər. Eyni zamanda təlimin təşkilatçılarından ADPU-nun Məzun Koordinasiya va Karyera söbəsinin müdiri Könül Əsgərova və qonaqlardan Gənc Xarici Dil Müəllimləri Birliyinin sədri, Elm va Təhsil Nazirliyi yanında ictimai Şuranin katibi Günay Əkbərova da mövzu ilə bağlı məlumat və təcrübələrini təlim iştirakçıları ilə bölüşmüşlər.<br>Görüşün məqsədi xarici və yerli universitetlərdə əmək bazarının nümayəndələri ilə əməkdaşlıq strategiyalarını araşdıraraq təhsil proqramalrının əmək bazarının tələblərinə uyğunlaşdırılmasını təmin etməkdir. |
| **10** | Layihə mövzusu üzrə elmi məruzələr (seminarlar, konfranslar, dəyirmi masalar və s. çıxışlar) |
| | ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru professor Mahirə Hüseynova və Filologiya fakültəsinin Müasir Azərbaycan dili kafedrasının müdiri dosent Könül Səmədova Daşkənd Dövlət Şərqşünaslıq İnstitutunun Filologiya fakültəsində və Türkologiya fakültəsində seminarlarda iştirak etmişlər. Professor Mahirə Hüseynova Filologiya fakültəsinin tələbələri üçün ustad dərsi demiş, məruzələrlə çıxış etmişdir. |
| **11** | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar |
| | Layihə üzrə həyata keçirilən tədbirlər üçün video-proyektor, mikrafonlar, sorğu vərəqlərinin hazırlanması üçün vatman kağızlar, vinil və digər yazı ləvazimatları (rəngli flomasterlər, kağız və s.) |
| **12** | Yerli həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)* |
| **13** | Xarici həmkarlarla əlaqələr |
| | *Türkiyə Respublikası Ərəbgir ilçəsinin bələdiyyəsinin sədri Haluk Comerdoğlu ilə elmi araşdırmlarla bağlı müzakirələr təşkil olunmuşdur.*<br>*Özbəkistan Respublikası Daşkənd Dövlət Şərqşünaslıq İnstitutunun Türkolohiya fakültəsinin dekanı Cümali Şabanov ilə görüş keçirilmiş və Avropa təjsil sisteminin türkdünyası təhsil sisteminə tətbiqi, öncül təcrübənin öyrənilib yayılması öyrənilib yayılmışdır.* |

| | |
|---|---|
| | |
| **14** | Layihə mövzusu üzrə kadr hazırlığı |
| | *(burada doldurmalı)* |
| **15** | Sərgilərdə iştirak |
| | ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru professor Mahirə Hüseynova və Filologiya fakültəsinin Müasir Azərbaycan dili kafedrasının müdiri dosent Könül Səmədova Daşkənd Universitetinin Türkologiya fakültəsinin nəznində fəaliyyət göstərən Heydər Əliyev və Azərbaycan dili kabinetlərində təşkil olunmuş sərgidə iştirak etmişlər. |
| **16** | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi |
| | *(burada doldurmalı)* |
| **17** | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. |
| | *(burada doldurmalı)* |

**Layihə rəhbərinin imzası __________________ Hüseynova Mahirə Nağı qızı**

**Tarix** ____________________

QEYD: bütün hallarda uyğun olan bəndlər doldurulmalıdır.